# GÖVHƏR BAXŞƏLİYEVA - 65



Baxşəliyeva Gövhər Baxşəli qızı şərqşünaslıq, klassik və müasir ərəb ədəbiyyatı, ərəbdilli Azərbaycan ədəbiyyatı, müqayisəli ədəbiyyatşünaslıq, ədəbi əlaqələr, mənbəşünaslıq, habelə şərqşünaslıq elminin digər istiqamətlərinin inkişafında görkəmli xidmətləri olan, milli şərqşünaslıq və ədəbiyyatşünaslıq elmini tədqiqatları ilə zənginləşdirən tanınmış alim və mütəxəssisdir.

1984-cü ildə namizədlik, 1996-ci ildə doktorluq dissertasiyaları müdafiə etmişdir. 2014-cü ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə həqiqi üzvü seçilmişdir.

17 kitab, o cümlədən 5 monoqrafiya müəllifidir. “Абд ас-Салам Уджейли. Очерки жизни и творчества”, “Книга песен» Абу-л-Фараджа ал-Исфахани и классическая азербайджанская литература”, “Современный сирийский рассказ”, “Литературные взгляды Тауфика ал-Хакима” adlı fundamental monoqrafiyaların, habelə 12 kitabın, o cümlədən orta əsr mənbələrinin şərhli filoloji tərcümələrinin müəllifidir: “Абу-л-Фарадж ал-Исфахани. Книга несен”, “İlahi eşq dastanları”, “Абу-л-Фарадж ал-Исфахани. Рассказы о Кайсе ибн Мулаввахе по прозвищу Меджнун и арабоязычных азербайджанских поэтах”, “Ölməzliyə aparan yol”, “Cübran Xəlil Cübran. Qırılmış qanadlar” (Ə.Məmmədova ilə birlikdə) və s.

Eyni zamanda müxtəlif illərdə G.B.Baxşəliyevanın “Hamıdan ucadır alimin yeri” və “Məqalələr, məruzələr, müsahibələr...” adlı 2 cildliyi çap edilmişdir. 2013-cü ilin sonunda isə G.B.Baxşəliyevanın və Ə.S.Abbasovun tərtibatı ilə “İslam. Ensiklopedik lüğət”, “Əsassız erməni iddiaları və tarixi faktlar” (ingiliscədən tərcümə) və s. kitabları işıq üzü görmüşdür. 220-dən çox elmi məqalə və məruzələrindən 25-i nüfuzlu xarici nəşrlərdə dərc olunmuşdur. Əsərləri keçmiş sovet respublikalarında və Şərq ölkələrində elmi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb, haqqında mətbuatda yazılar gedib, tədqiqatlarda əsərlərinə çoxsaylı istinadlar edilib.

Prof. G.B.Baxşəliyevanın rəhbərliyi ilə AMEA ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi, mədəni inkişafı, Şərq xalqlarının tarixi, filoloji, dini-fəlsəfi irsi, yazılı abidələri, Şərq-Qərb sivilizasiyalararası münasibətləri, Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələri, müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətləri araşdırılmışdır. Güney Azərbaycanın iqtisadi, ictimai və mədəni inkişaf problemləri, habelə islam fundamentalizmi və s. bu kimi məsələlərin tədqiqi daha geniş vüsət almışdır.

G.B.Baxşəliyeva şərqşünaslıq sahəsində bir çox əsərlərin elmi redaktorudur. “Azərbaycan şərqşünaslığı”, “Şərq araşdırmaları” jurnallarının baş redaktoru və “Şərq filologiyası məsələləri” toplusunun elmi re-

daktorudur. Bir sıra dərgilərin redaksiya heyətinin üzvüdür.

O, Azərbaycan şərqşünaslıq elmini dəfələrlə xarici ölkələrdə (Rusiya Federasiyası, İran, Türkiyə, Rumıniya, Macarıstan, Polşa, Çin, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası, Suriya, Səudiyyə Ərəbistanı Krallığı, Fransa, Böyük Britaniya, Almaniya, İtaliya və s.) beynəlxalq konqres, simpozium və konfranslarda ləyaqətlə təmsil edib, elmin aktual problemlərinə dair məruzələrlə çıxış etmişdir. Müntəzəm olaraq respublika elmi konfranslarında məruzələrlə çıxış edir. Onun təşkilatçılığı ilə bir sıra beynəlxalq və respublika elmi konfransları keçirilmişdir.

G.B.Baxşəliyeva şərqşünas kadrların hazırlanmasında yaxından iştirak etmişdir. Onun bilavasitə rəhbərliyi ilə 21 namizədlik dissertasiyası müdafiə olunmuşdur. Hazırda bir neçə doktorant və dissertanta rəhbərlik edir. Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü (Avstriya, İnsbruk), "Qızıl qələm" mükafatı laureatıdır.

G.B.Baxşəliyeva eyni zamanda ölkəmizin ictimai-siyasi həyatında da fəal iştirak edir. O, II, III və IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş, 2001-ci il iyunun 12-dən 2005-ci il dekabrın 2-dək MM sədrinin müavini vəzifəsində çalışmışdır. Hazırda V çağırış MM-nin üzvüdür. Azərbaycan Respublikası Milli Məclisinın İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqında nümayəndə heyətinin rəhbəridir. Onun 2001-ci ildən bugünədək rəhbərlik etdiyi Parlament nümayəndə heyəti İƏT Pİ-nin sessiya və konfranslarında Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən, Xocalı soyqırımını insanlığa qarşı cinayət adlandıran, üzv parlamentlərə bu haqda qanunvericiliyə əlavələr etməyi təklif edən, işğal edilmiş Azərbaycan ərazilərində müqəddəs islam məbədlərinin, məscidlərinin və məqbərələrinin dağıdılmasını kəskin pisləyən bir sıra qətnamələrin qəbuluna və yekun bəyannamələrə (İstanbul, Qahirə, Əbu Dabi, Kuala-Lumpur, Dəməşq, Palembanq, Xartum, Ankara deklorasiyaları və s.) müvafiq maddələrin salınmasına nail olmuşdur. G.B.Baxşəliyeva MM-in Azərbaycan-Misir dostluq qrupunun rəhbəridir. Azərbaycan Parlamentini bir sıra beynəlxalq sessiya və konfranslarda təmsil edib (Paris, Bonn, Roma, Uels (Avstriya), Tripoli, Kuala-Lumpur, Niamey (Niger), Buxarest, Xartum (Sudan) və s.). Dövrü mətbuatda müntəzəm olaraq ictimai-siyasi və mədəni həyatın aktual məsələlərinə aid məqalə və müsahibələrlə çıxış edir.

*"Türkologiya" jurnalı*